



# KBR-in Etik Davranış Kodeksi



## Biz Dürüstlüyə Dəyər Verən İnsanlarıq




# Mündəricat


**Prezident və Baş icraçı direktor Styuart Bredinin Müraciəti** 2

**Biz Dürüstlüyə Dəyər Verən İnsanlarıq** 3
- Gələcəyə Baxışımız və Dəyərlərimiz 4
- Etik Davranış Kodeksimiz 5
- Öhdəliklərimiz 6
- Qərarları Necə Qəbul Edirik 7
- Necə Kömək üçün Müraciət edir, Problemlərimizi Bəyan edir və Suallar Veririk 8
- Biz Anonimlik və Konfidensiallığa Hörmətlə Yanaşırıq 9
- Biz Cəzalandırmaya Qarşı Dözümsüzük 9

**Bir-Birimizə Verdiyimiz Dəyər** 10
- Əməkdaşlarımız və Podratçılarımızın Sağlamlıq və Təhlükəsizliyinin Qeydinə Qalırıq 11
- İş Yerində Qarşılıqlı Hörmət Mühitini Dəstəkləyirik 12
- İnklüzivliyi və Müxtəlifliyi Dəstəkləyirik 14

**Dürüst Xidmət Göstəririk** 15
- Maraqların Toqquşmasından Yayınırıq 16
- Rüşvətxorluq və Korrupsiyanın Qarşısını Alırıq 18
- İşgüzar Lütfkarlığı Məsuliyyətli Şəkildə Təqdim Edir və Qəbul Edirik 20
- Biz Beynəlxalq Biznes və Ticarəti Dürüstlüklə Aparırıq 21
- Ədalətli Rəqabət Aparırıq 22
- Biz Dürüst İşləyirik 23

**Kritik Aktivlərimizə Verdiyimiz Dəyər** 24
- Məxfiliyi və Şəxsi Məlumatları Qoruyuruq 25
- Reputasiyamızı Qoruyuruq 26
- Biz Konfidensial və Xidməti Məlumatları Qoruyuruq 27
- İnsayder Ticarətinin Qarşısını Alırıq 28

**Şəffaf Xidmət** 29
- Dövlət Sifarişçiləri ilə Etik Qaydada və Şəffaf İşləyirik 30
- Təchizatçılar və Üçüncü Tərəflərlə Etik Qaydada İşləyirik 31
- Qeydləri və Mühasibat Uçotunu Dəqiqliklə Aparırıq 32

**İcmalarımıza Verdiyimiz Dəyər** 33
- Dayanıqlı Bir Gələcək Qururuq 34
- İnsan Haqlarına Hörmətlə Yanaşırıq 35
- İcmalarımızla Qarşılıqlı Əlaqə Saxlayırıq 36

**Resurslar və Hesabatlılıq** 37



Styuart Bredi
Prezident və Baş İcraçı Direktor

# Prezident və Baş İcraçı Direktor Styuart Bredinin Müraciəti

KBR-də müştərilərimizə həllərin təqdim edilməsi üzrə gözəl bir reputasiya qazanmışıq və əməkdaşlarımız hər zaman üzərlərinə düşən tapşırıqları mükəmməl şəkildə yerinə yetirməyə çalışırlar. Zirvədə olmaq gördüyümüz işi vicdanla yerinə yetirmək deməkdir. Dürüstlük ədalətli olmağı tələb edir və ədalətlilik inam yaradır.

Bizim Etik Davranış Kodeksimiz (bundan sonra "Kodeks") bir komanda olaraq ətraf dünya ilə necə əlaqə qurmağımız və bu baxımdan uğurumuz üçün vacibdir. Kodeks VAHİD KBR dəyərlərimizə uyğundur və xüsusən də "Biz Dürüstlüyə dəyər verən insanlarıq" adlı dəyərimiz bütün fəaliyyətimizdə bizə rəhbərlik edir.

KBR-ın Kodeksi bütün əməkdaşlara işdəki gündəlik vəziyyətlərlə bağlı praktiki bələdçi olmaq üçün təkmilləşdirilmişdir. Kodeks biznes, region və ya departamentdən asılı olmayaraq hər birimizə aid olan xüsusi təlimatları özündə ehtiva edir. Dürüstlük mədəniyyətini daha da gücləndirmək, özümüzü və şirkətimizi qorumaq üçün ona əməl etməyimiz vacibdir.

Buna baxmayaraq, Kodeks bütün vəziyyətləri əhatə etməyə bilər və buna görə də biz öz dəyərlərimizi, xüsusən də dürüstlüyü rəhbər tutmalıyıq. Mən əməkdaşların Kodeksimizə və dəyərlərimizə zidd olan qanunsuz hərəkətlər və ya davranışlarla bağlı narahatlıqlarını cəzalandırılma qorxusu olmadan bəyan etmək səlahiyyətinə sahib olduqlarını hiss etdikləri və problemlərin dərhal həll olunacağı bir mədəniyyəti təşviq etməyə ürəkdən bağlıyam.

Sizi maraqlandıracaq müəyyən uyğunluq və ya etik məsələlərlə bağlı suallarınızın yarana biləcəyi hallar ola bilər. Zəhmət olmasa, məsləhət almaq və ya məsələlərə aydınlıq gətirmək üçün menecerinizə müraciət edin və ya Kodeksimizdə sadalanan mənbələrə istinad edin. KBR-ın Etik Məsələlər üzrə Qaynar Xətti, Biznes Etikası Qrupu ilə gizli və ya anonim şəkildə əlaqə yaratmağınıza imkan verən resurslardan biridir.

KBR, onun dəyərləri ilə və hər gün dürüstlüyə dəyər verən insanlar kimi çalışmağımızla fəxr edirəm. Və ümid edirəm ki, hamımız ən yüksək etik standartlara uyğun olaraq birlikdə işləməyə davam edəcəyik ki, vədlərimizi etibarlı və davamlı şəkildə yerinə yetirə bilək və həm indi, həm də gələcəkdə bir-birimizə və müştərilərimizə dəstək olaq.



# Biz Dürüstlüyə Dəyər Verən İnsanlarıq

- Gəcələcəyə Baxışımız və Dəyərlərimiz
- Etik Davranış Kodeksimiz
- Öhdəliklərimiz
- Qərarları Necə Qəbul Edirik
- Necə Kömək üçün Müraciət edir, Problemlərimizi Bəyan edir və Suallar Veririk
- Anonimlik və Konfidensiallığa Hörmətlə Yanaşırıq
- Biz Cəzalandırmaya Qarşı Dözümsüzük

# Gələcəyə Baxışımız və Dəyərlərimiz

Müştərilərimizə ən vacib missiya və məqsədlərini yerinə yetirməyə kömək edən texnologiya və həllər təqdim etmək üçün ən bacarıqlı və istedadlı insanları bir araya gətirərək daha təhlükəsiz, sağlam və dayanıqlı bir dünya qurmağa çalışırıq.

Dəyərlərimizin təməlində gündəlik fəaliyyətimizi müəyyən edən və bizi bir şirkət olaraq formalaşdıran kritik və davamlı prinsiplər durur.




## Biz Əməkdaşlarımıza Dəyər Veririk

Bizim fəaliyyətimizin əsasını insan faktoru təşkil edir. Komandamızın hər bir üzvünün özünü təhlükəsiz hiss etdiyi, dəstək aldığı, hörmət, etibar edildiyi və dəyər verildiyi və inkişaf etmək və özünün tam potensialını reallaşdırmağa imkan verən mədəni müxtəliflik və inklüzivliyin olduğu bir iş mühiti yaratmağa çalışırıq.

## Biz Xidmət Göstəririk

Biz müştərilərimizin güvəndikləri tərəfdaşlarıq. Biz bütün maraqlı tərəflərimiz üçün innovativ, yüksək keyfiyyətli, texnologiyaya əsaslanan həllər təqdim etmək və güclü kommersiya və əməliyyat intizamı ilə dəstəklənən müstəsna və dayanıqlı dəyər vermək öhdəliyimizə çox sadiqik.

## Biz Dürüstlüyə Dəyər Verən İnsanlarıq

Biz Dürüstlüyü, güvəni, cəsarəti, ədaləti, ehtiyatlılıq və əzmkarlığı qiymətləndirən prinsipial insanlarıq. İnanırıq ki, planet, yaşadığımız və işlədiyimiz icmalar və əməkdaşlarımız üçün doğru olanı etmək bizim biznesimiz üçün faydalıdır. Biz Dürüstlüyümüzdən imtina etməyəcəyik.

## Biz Səlahiyyət Veririk

Bütün əməkdaşlarımız üçün təşəbbüs göstərmək, dəyişikliyə uyğunlaşmaq və uğur qazanmaq baxımından zəruri ortaq məqsədi müəyyən edir, onlara düzgün alətlər verir və əlverişli iş mühiti ilə təmin edirik. Biz onlara problemlərlə üz-üzə gəlməkdən qorxmayan və gördükləri işdən qürur duyan, müstəqil qərar qəbul edən şəxslər kimi etibar edirik.

## Biz Ekspertlər Komandasıyıq

Fərd və şirkət olaraq uğur qazanmaq istəyimiz var, lakin komandamızın nailiyyətlərini fərdi uğurlarımızdan daha üstün qiymətləndiririk. Kollektiv diqqətimiz əməliyyat mükəmməlliyimizə kömək edir, müştərilərimizə xidmət göstərmək həvəsimizi artırır və bizi daha yaxşı, daha güclü, daha məhsuldar bir şirkət halına gətirir. Biz VAHİD bir KBR-ıq.

# Etik Davranış Kodeksimiz

Etik Davranış Kodeksimiz KBR-də və ya onun adından işləyən hər kəs üçün etik standartlar və hüquqi prinsiplər toplusunu müəyyən edir. Biz fəaliyyətimizi bu Kodeksə və qüvvədə olan qanunlara uyğun şəkildə həyata keçiririk. Biz həmçinin KBR ilə və ya onun adından işləyən tərəfdaşlarımızın bu etik standartlara riayət etmələrini gözləyirik.

Bu Kodeks müştərilərimiz, icmalarımız və bir-birimizlə necə iş apardığımızı və qarşılıqlı münasibətlərimizi yönləndirir.

## İşimizi vicdanla görmürüksə, demək işimizi düz aparmırıq!

Bu Kodeks və ya qanunların pozulması işdən çıxarılma da daxil olmaqla intizam tənbehinə səbəb ola bilər. Kodeksimizi oxuyun, başa düşün və ona əməl edin. Kodeksimizlə bağlı təlimlərə qatılın və KBR-dakı işinizə nə dərəcədə aid olduğunu öyrənin. VAHİD KBR olaraq bizim dürüstlüyümüz Kodeksimizə əməl etməyimizdən asılıdır.





# Öhdəliklərimiz

**Biz hamımız bu Kodeksə uyğun davranmağa görə məsuluq. Əməkdaşlar olaraq biz:**

- Bütün işgüzar sövdələşmələrdə dürüst və etik davranırıq
- Qüvvədə olan bütün qanunlar və Kodeksə, eləcə də KBR-ın daxili siyasət və prosedurlarına əməl edirik
- Kodeksin hər hansı pozuntusu ilə bağlı dərhal menecerə, Əməkdaşlarla İş Şöbəsinə (İnsan Resursları), Hüquq Departmentinə, Biznes Etikası Qrupuna, yaxud www.ethics.kbr.com keçidindəki Etik Məsələlər üzrə Qaynar Xəttə bildirin
- Etik məsələlər və ya hüquqi problemlərlə qarşılaşdığınız zaman menecerdən və ya Hüquq Departmentindən məsləhət alın, yaxud Etik Məsələlər üzrə Qaynar Xətlə əlaqə saxlayın ki, burada biz Sualların İdarə Edilməsi funksiyasının köməkliyi ilə sizə suallar ünvanlaya bilərik

**Menecerlərin üzərinə əlavə vəzifələr düşür. Buraya aşağıdakılar daxildir:**

- Etik davranışı formalaşdırmaq
- Etik mədəniyyəti və dürüstlüyə əsaslanan qərarvermə prosesini təşviq etmək
- Açıq ünsiyyəti təşviq etmək və əməkdaşların öz problemlərini rahatlıqla ifadə edə biləcəkləri bir mühit yaratmaq
- Suallar və narahatlıq doğuran məsələlərlə bağlı tövsiyə və rəylər vermək
- Pozuntuların nə zaman bəyan ediləcəyini, problemlərin nə zaman eskalasiya ediləcəyini və ya şirkətdəki mütəxəssislərindən nə zaman kömək istəniləcəyini bilmək
- Heç bir əməkdaşın Kodeks və ya qanun pozuntularını bəyan etdiyinə görə cəzalandırılmamasını təmin etmək

# Biz Qərarları Necə Qəbul Edirik

Doğru olanı etmək heç də həmişə asan və ya aydın deyil. Bu Kodeks faydalı bir alətdir, lakin o hər bir vəziyyət üçün bələdçi ola bilməz. Buna görə də, işgüzar qərarlar hər zaman dürüstlüyə əsaslanmalıdır.



**Dürüstlüyə əsaslanan qərarlar qəbul etməyə kömək edəcək aşağıdakı cavabların üzərinə klikləyin.**

**Bu hərəkətin hər hansı bir qanun və ya qaydanı pozması mümkündür?**

BƏLİ | XEYR

**Bu hərəkət bizim Kodeksə, siyasətə və prosedurlara uyğundur?**

BƏLİ | XEYR

**Bu hərəkət KBR-ın dəyərlərinə uyğun gəlirmi, missiyamıza töhfə verəcək və nüfuzumuzu artıracaqmı?**

BƏLİ | XEYR

**Bu fəaliyyət müştərilər və ya biznes partnyorlarımızla münasibətlərimizə zərər verə bilər?**

BƏLİ | XEYR

**Əgər bu hərəkət açıqlansaydı, dürüst davrandığımı göstərərdi? Bu hərəkət ictimailəşsəydi, özümü rahat hiss edərdim?**

BƏLİ | XEYR

# Necə Kömək üçün Müraciət edir, Problemlərimizi Bəyan edir və Suallar Veririk



Dürüst insanlar olaraq, şübhələndiyimiz hər hansı Kodeks pozuntusu haqqında xəbər vermək öhdəliyimiz var və əməkdaşlardan və başqalarından Kodeksimizə uyğun olmayan qeyri-etik davranışlar və hərəkətlər barədə məlumat vermələrini ümid edirik. Bu o deməkdir ki, bütün məlumatlara sahib olduğumuzdan əmin olmasaq da, narahatlıqlarımızı dilə gətirməliyik. Bir çox hallarda narahatlıqlarımızı ən yaxşı fəaliyyət istiqamətini müzakirə etməkdə bizə kömək edə biləcək bir menecerə bildirə bilərik.

KRB-ın Etik Məsələlər üzrə Qaynar Xətti müstəqil bir şirkət tərəfindən idarə olunur. O, gündə 24 saat, həftənin yeddi günü, bir çox dildə xidmət göstərir. Etik Məsələlər üzrə Qaynar Xətt məxfi şəkildə məlumat verməkdən ötrü KBR-ın əməkdaşları və ya kənar şəxslər tərəfindən istifadə edilə bilər.

Etik Məsələlər üzrə Qaynar Xəttin “Sual Meneceri” adlı funksiyası var ki, burada biz suallarımızı ünvanlaya və ya Biznes Etikası Qrupundan riayət və ya etika ilə bağlı məsələlərə aydınlıq gətirmələrini istəyə bilərik. Mümkün pozuntular barədə məlumatlar kimi, suallar və ya narahatlıq doğuran məsələlər də Etik Məsələlər üzrə Qaynar Xəttə anonim göndərilə bilər.

**KBR-da siz aşağıdakı vasitələrlə əlaqə saxlaya bilərsiniz:**

- Etik Məsələlər üzrə Qaynar Xətt (anonim qalmaq seçimi mövcuddur)
  - Veb-sayt:
    - www.ethics.kbr.com
  - Telefon:
    - ABŞ: (800) 461-9330
    - Birləşmiş Krallıq: 0808 189 1053
    - Bütün digər ölkələrdəki telefon nömrələri üçün baxın: www.ethics.kbr.com
  - 832-479-1340 nömrəsinə "Hesabat" mətnini göndərin (yalnız ABŞ-da mövcuddur)
- Biznes etikasına dair məsələlər üzrə Direktor fhoukbrcode@kbr.com
- Biznes Etikası Qrupunun poçtu:
  - Poçt Qutusu 2464, Hyuston, TX 77252-2464 ABŞ
- KBR-ın Hüquq Departamentinin müvafiq nümayəndəsi; Audit Xidmətləri; Əməkdaşlarla İş Şöbəsi (İnsan Resursları); Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit (SƏTƏM); və ya qaydalara riayətlə əlaqəli digər departament
- Sizin rəhbəriniz və ya meneceriniz
- İdarə Heyətinin Üzvü

**Ətraflı**
İnsidentlərin Bəyanı ilə bağlı Tez-Tez Verilən Suallar

## Biz Anonimlik və Konfidensiallığa Hörmətlə Yanaşırıq

Problemləri və ya Kodekslə bağlı şübhəli pozuntuları məxfi və ya anonim şəkildə bildirə bilərsiniz. Anonim hesabatlar müstəqil üçüncü tərəfin idarə etdiyi Etik Məsələlər üzrə Qaynar Xətt vasitəsilə təqdim edilə bilər. Etik Məsələlər üzrə Qaynar Xətt vasitəsilə anonim hesabat təqdim etsəniz, KBR şəxsiyyətinizi müəyyən edə bilməyəcək, lakin mesajlaşma sistemi vasitəsilə sizinlə kommunikasiya qura biləcək. Anonim qalmağı seçsəniz, probleminizi effektiv bir şəkildə araşdıra bilməyimiz üçün kifayət qədər təfərrüatlı və faktlara əsaslanan məlumat verməyinizi xahiş edirik.

## Biz Cəzalandırmaya Qarşı Dözümsüzük

Dürüstlüyümüz problemləri açıq şəkildə bəyan etməyimizi tələb edir. Problemlərini vicdanla söyləyən insanları heç vaxt cəzalandırmırıq. Əməkdaşlarımız və komandalarımız işlərini ən yaxşı şəkildə yerinə yetirmək üçün şəffaflığa və dürüstlüyə etibar edirlər. Zorakılıq və ya digər neqativ davranışlarla bu dəyərləri inkişaf etdirə bilmərik. Belə bir davranış iş yerlərimizdə qəbuledilməzdir və uyğun olmayan davranışa dair iddialar üzrə istənilən sorğu və ya araşdırmalarla bağlı tam əməkdaşlıq edirik.

Kodeks və ya qanunlarla bağlı potensial pozuntuların bəyan edilməsinə görə cəzalandırılma KBR üçün qəbuledilməzdir. KBR bu cür məlumatların vicdanla təqdim olunacağına ümid edir. Bu, o demək deyildir ki, bəyan edən şəxs bütün aidiyyəti faktlara sahib olmalıdır; bəyan edən şəxs cəzalandırılma qorxusu olmadan sərbəst şəkildə suallar verə bilməli və narahatlıq doğuran hər hansı bir problemi bildirməlidir. Hərçənd, bilərəkdən yalan və ya zərərli məlumatların ötürülməsi dürüst davranış hesab edilmir və intizam tənbehi üçün əsas ola bilər.

Qadağan olunmuş cəza tədbirlərinə qeyri-etik davranışları bəyan edən və ya başqalarını bu cür hesabatlar verməyə təşviq edən əməkdaşları və digər şəxsləri təqib etmək və ya qorxutmaq aid edilə bilər. Cəzalandırma xarakterli hər hansı davranış, bəyan etmənin qarşısını alma cəhdləri və qeyri-etik davranışların gizlədilməsi dəyərlərimizə uyğun gəlmir və işdən çıxarılma da daxil olmaqla intizam tənbehinə səbəb ola bilər.

Bu Kodeksdə heç bir müddəa əməkdaşların Şirkətə bildirmədən və ondan öncədən razılıq istəmədən potensial qanun pozuntularını istənilən vaxt müvafiq dövlət qurumlarına bildirmələri ilə bağlı qanuni hüquqlarını və ya məsuliyyətlərini yerinə yetirmələrinə mane olmur.





# Bir-Birimizə Verdiyimiz Dəyər

- Əməkdaş və Podratçılarımızın Sağlamlıq və Təhlükəsizliyinin Qeydinə Qalırıq
- İş Yerində Qarşılıqlı Hörmət Mühitini Dəstəkləyirik
- İnklüzivliyi və Müxtəlifliyi Dəstəkləyirik

# Əməkdaş və Podratçılarımızın Sağlamlıq və Təhlükəsizliyinin Qeydinə Qalırıq

KBR-ın biznesinin müvəffəqiyyəti, təqdim etdiyimiz xidmətlərin keyfiyyətinin daim artırılması potensialından, eyni zamanda şirkət üçün birbaşa və ya dolayı yolla çalışanların sağlamlığının və əməyinin təhlükəsizliyinin qorunmasından asılıdır. Bütün əməkdaşlardan və podratçılardan Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitlə (SƏTƏM) bağlı fəal öhdəlik və hesabatlılıq tələb edirik. Bu öhdəlik müştərilərimiz, əməkdaşlarımız, podratçılarımız və maraqlı tərəflərimizin, eləcə də yaşadığımız və işlədiyimiz icmaların maraqlarına cavab verir.

## Əməkdaşlarımızın və Podratçılarımızın Sağlamlığını və Təhlükəsizliyini Necə Təmin Edirik

- Əməkdaşlarımızın və podratçılarımızın sağlamlığını, əmək təhlükəsizliyini qorumaq və daim inkişaf etdirməyə çalışmaq
- "Sıfır Zərər" mədəniyyəti ilə insidentləri aradan qaldırmaq
- Konkret müştəri tələblərinə cavab vermək və davamlı olaraq müştəri məmnuniyyətini təmin etmək
- Effektiv idarəetmə sistemindən istifadə etməklə SƏTƏM məqsədlərini müəyyən etmək, nəticələri ölçmək, prosesləri və xidmətləri qiymətləndirmək və daim təkmilləşdirmək
- Birbaşa rəhbərlik SƏTƏM üzə siyasət və prosedurların kommunikasiyası, icrası və uyğunluğunun təmin edilməsində aparıcı rol oynamalıdır
- SƏTƏM-in layihələndirilməsi üzrə bütün aspektlərinə texniki bacarıqları tətbiq etmək
- Maraqlı tərəflərlə açıq ünsiyyət qurmaq və SƏTƏM üzrə siyasət, proqram və prosedurların başa düşülməsini təmin etmək
- SƏTƏM-in uğurlu icrasını təqdir etmək

ZERO HARM
COURAGE TO CARE

### "Sıfır Zərər" və Qayğı Göstərmək üçün Cəsarət

KBR-da "Sıfır Zərər"in əldə oluna biləcəyinə səmimi olaraq inanırıq. Biz inanırıq ki, iş yerində baş verən insidentlərin hamısının qarşısını almaq mümkündür. Bizim Qayğı Göstərmək üçün Cəzarətlə bağlı Söhbət Prosesi müşahidə, müdaxilə və söhbət yolu ilə təhlükəli hərəkətlər barədə davamlı olaraq məlumatın əldə edilməsində mühüm rol oynayır. Qayğı Göstərmək üçün Cəzarətlə bağlı Söhbət Prosesi məqsədi iş mühitini davamlı olaraq qiymətləndirmək, insanlar və onların davranışlarına diqqət yetirməkdir.

Təhlükəli hərəkətlər insidentə səbəb ola biləcək fərdi davranışlardır. Təhlükəli hərəkəti müşahidə edərkən Qayğı Göstərmək üçün Cəzarətlə bağlı Söhbət Prosesi müşahidəçidən yalnız təhlükəli hərəkəti təshih etmək üçün deyil, həmçinin şəxsi təhlükəsizlik standartları barədə məlumat vermək üçün dərhal hərəkət etməsini tələb edir. Bu, təhlükəli hərəkəti müşahidə edən və belə bir davranış sərgiləyən şəxslərin təhlükəni başa düşülməsinə və təhlükəsizlik öhdəliyinə gətirib çıxarır.

**Ətraflı**

Global HSSE

# İş Yerində Qarşılıqlı Hörmət Mühitini Dəstəkləyirik

Bizim fəaliyyətimizin əsasını insan faktoru təşkil etdiyinə görə, bütün əməkdaşlara ləyaqət və hörmətlə yanaşılmalı olduğuna inanırıq. Bu, əməkdaşların fərdi qaydada verdikləri töhfələri qəbul etmək və hər kəsə KBR-a töhfə vermək və burada uğur qazanmaq üçün bərabər imkanlar yaratmaq deməkdir. Hər hansı növ qısnama və ayrıseçkiliyi qəbul etmirik. Komandalarımızın işlərini ən yaxşı şəkildə yerinə yetirməsinə şərait yaratmaq üçün hər kəsin hüquq və qabiliyyətlərinə hörmət edildiyi bir iş mühitini təmin edirik.

## İş Yerində Qarşılıqlı Hörmət Mühitini Necə Dəstəkləyirik

- Komanda üzvləri, müştərilərimiz və ya biznes partnyorlarımızla qarşılıqlı əlaqədə olmağınızdan asılı olmayaraq həmişə başqalarına hörmətlə yanaşın
- Hərəkətlərimiz və sözlərimizin başqaları tərəfindən necə qəbul edilə biləcəyinə diqqət yetirin
- Biz aşağıdakılara görə ayrıseçkilik etmirik və ya qısnamaya məruz qoymuruq:
  - İrq
  - Rəng
  - Dini inanclar
  - Etnik mənsubiyyət
  - Cins, hamiləlik, cinsi orientasiya, gender, gender mənsubiyyəti, gender və özünüifadə və ya transgender statusu
  - Fiziki və ya əqli çatışmazlıq
  - Yaş
  - Veteran və ya hərbi qulluqçu statusu
  - Genetik məlumat
  - Qüvvədə olan qanunvericiliklə qorunan hər hansı digər status və ya xüsusiyyət
- Heç vaxt cinsi və ya ikili məna kəsb edən şərhlər və ya zorakılıq təhdidləri də daxil olmaqla, zorakılıq təhdidləri, işə qəbul zamanı neqativ hərəkətlər və ya işə qəbul zamanı əlverişli vədlərin verilməsi ilə hər hansı bir şəkildə qısnamayın, qorxutmayın və ya məcbur etməyin
- Bütün işə qəbul və vəzifə artımı ilə bağlı qərarların şəxsi xidmətlərə əsaslanaraq və ədalətli şəkildə verin
- İş yerlərimizdə ayrı-seçkilik, qısnama və ya hörmətsizliklə qarşılaşdıqda və ya bu barədə məlumat əldə etdikdə bunu bildirin





### Qısnamanı Başa Düşmək

Təcavüz qəsdən törədilə bilsə də, bu hər zaman belə olmaya bilər. Əhəmiyyətli olan onun necə başa düşülməsidir. Başqalarının təhqiramiz kimi qəbul edə biləcəyi bir hərəkət etməməli və ya söz söyləməməliyik. Qısnama özünü müxtəlif formalarda büruzə verir:

- Başqalarının irqi, etnik və ya cinsi mənsubiyyəti ilə bağlı lakin bunlarla məhdudlaşmayaraq, dediyimiz və ya yazdığımız fikirlər, məsələn, alçaldıcı və ya təhqiramiz ifadələr və ya təhqirlər, o cümlədən, habelə cinsi zəmində ifadələr və ya təcavüz, təhdid və ya təhqiramiz ifadələr
- Arzuolunmaz toxunuşlar və ya kiminsə önünü kəsmək də daxil olmaqla biz etdiyimiz hərəkətlər
- Ofis kompüterində açdığınız seksual xarakterli və ya təhqiramiz şəkillər və ya veb-saytlar olaraq nələri göstəririk
- Elektron mesajlar və ya sosial mediadan istifadə edərək nələri kommunikasiya edirik

## Cavabların Verilməsi

**Q** Bu yaxınlarda məni strateji inkişaf komandasının üzvü kimi işə qəbul ediblər. İş masamı hazır vəziyyətə gətirmək üçün Sem adlı İT üzrə köməkçi ilə görüşdüm. Sem kompüteri quraşdırılmasında mənə kömək edərkən əlini mənim buduma qoydu. Mən ona heç bir söz demədim və Sem kompüterin quraşdırılması işini başa çatdırdı. İnsidentin başa çatdığına sevindim, lakin indi təmir və ya yeniləməyə ehtiyacı yarandıqda İT departamenti ilə əlaqə saxlamağa görə narahatlılıq keçirirəm. Bu halda mən nə etməliyəm?

**A** Semin davranışı qəbuledilməzdir. İş yerində yersiz toxunuşlar yolverilməzdir. Siz menecerinizə, Əməkdaşlarla İş Şöbəsinə (İnsan Resursları) və ya Biznes Etikası Qrupuna bu vəziyyətlə bağlı məlumat verməli yaxud bu barədə Etik Məsələlər üzrə Qaynar Xəttinə bildirməlisiniz.

**Q** Mən KBR-də işə yenicə başlamışam və mən çox həyəcanlıyam. Təəssüf ki, həmkarlarımdan biri məni çox narahat edir. İlk görüşdə mən hiss etdim ki, Lendon adlı həmkarım gözlərini mənə zilləyib. Həmin gün ondan bir e-poçt aldım. Elektron məktubda o, mənim çox gözəl olduğumu düşündüyünə görə e-poçt ünvanımı şirkətin qovluğundan tapdığını söylədi. Aydındır ki, o mənim Instagram və Facebook səhifələrimi də tapıb, çünki həmin axşam evə gələndə hər iki hesabımda onun dostluq təkliflərini gördüm. Ertəsi gün onu görəndə dedim ki, mənə mesaj göndərməyi dayandırsın. Bundan sonra bir neçə iclasa daxil edilmədiyimi və mənə verilən tapşırıqların azaldıldığını gördüm. İşdəki problemlərin bir-biri ilə əlaqəli olub olmadığına əmin deyiləm. Bu halda mən nə etməliyəm?

**A** KBR qısnama və cəzalandırma məsələlərinə ciddi yanaşdığından vəziyyətinizi dərhal menecerlə və ya Əməkdaşlarla İş Şöbəsi ilə (İnsan Resursları), müzakirə edin və ya məsələ barədə Biznes Etikası Qrupuna, Hüquq Departamentinə yaxud Etik Məsələlər üzrə Qaynar Xəttə məlumat verin. Bu məsələyə baxılacaq və Kodeksin və ya KBR-ın digər siyasətinin pozulduğunu müəyyən etmək üçün araşdırma aparılacaqdır.

# İnklüzivliyi və Müxtəlifliyi Dəstəkləyirik

Fərdi müxtəlifliklərimiz və perspektivlərimizin komandalarımıza əlavə dəyər qazandırdığına və ən çətin problemlərlə bağlı həll yollarının işlənib hazırlanmasına kömək etdiyinə inanırıq. Müxtəlifliklərimizi nəzərə alaraq və birlikdə çalışaraq daha innovativ, daha dayanıqlı və təhlükəsiz bir mühitdə olduğumuzu başa düşürük. Fikirlərimizi bölüşmək imkanımız olduğu halda komandalarımız inkişaf edir. Müxtəlif və əhatəli perspektivlər qərarlarımızın keyfiyyətini artırır və əlverişli bir iş yer kimi nüfuzumuzu qoruyur. İstedada və iti zəkaya malik müxtəlif insanları işə cəlb etməyə davam edəcəyik. Kimliyimizdən asılı olmayaraq hər birimizin arzuolunan bir iştirakçı olduğunu hiss etməyimiz bizim yaradıcılığımızı və yaratdığımız dəyəri artırır.

## İnklüzivliyi və Müxtəlifliyi Necə Dəstəkləyirik

- Komandalarımızı formalaşdırarkən müxtəlifliyi hər zaman nəzərə alırıq
- Bütün komanda üzvləri ilə aydın bir şəkildə ünsiyyət qururuq
- Həllərin tapılması üçün fərqli nəzər nöqtələrini fəal şəkildə axtarır və təqdir edirik
- Bütün nəzər-nöqtələrini və mövqeləri dinləyirik
- Bizim və ya başqalarının fikirlərinə hörmətlə yanaşılmadıqda bununla bağlı mövqeyimizi bildiririk

**Ətraflı**

Styuart Bredi KBR-da Baş İcraçı Direktorun müxtəliflik və inklüzivlik naminə fəaliyyət öhdəliyini imzaladı





# Dürüst Xidmət

- Maraqların Toqquşmasından Yayınırıq
- Rüşvətxorluq və Korrupsiyanın Qarşısını Alırıq
- İşgüzar Lütfkarlığı Məsuliyyətli Şəkildə Təqdim Edir və Qəbul Edirik
- Biz Dürüstlüklə Beynəlxalq Biznes və Ticarət Aparırıq
- Ədalətli Rəqabət Aparırıq
- Biz Dürüst İşləyirik

# Biz Maraqların Toqquşmasından Yayınırıq

Ekspertlər komandası olaraq biz şəxsi maraqlarımızı KBR-ın ən yüksək maraqlarından üstün tutmuruq. Biz şəxsi münasibətlərin və ya digər maraqların qərar qəbuletmə prosesinə təsir göstərməsinə imkan vermədiyimiz zaman ən yaxşı həlləri təklif edirik. Biz faktiki və ya potensial maraq toqquşmalarının həllində dürüst, etik və şəffaf bir şəkildə davranırıq. Zahirən belə maraqların toqquşması KBR üçün nüfuz riskləri yarada bilər və əməkdaşlarımızın mənəviyyatına təsir göstərə bilər.

## Biz Maraqların Toqquşmasından Necə Yayınırıq

- Qərarları obyektiv şəkildə və tərəfkeşliyə yol vermədən qəbul etmək
- Obyektivliyimizə təsir göstərə biləcək vəziyyətlərə, münasibətlərə və ya hərəkətlərə qarşı diqqətli olmaq
- Potensial maraqların toqquşması barədə dərhal menecerinizə, Hüquq Departmentinə, yaxud Biznes Etikası Qrupuna məlumat vermək potensial maraqlar toqquşmasının həlində əsas faktordur
- Mümkün ola biləcək öz maraqlarımızın toqquşması iləbağlı qərarlardan kənar durmaq
- Yaxın qohumumuzu işə almaq və ya onlarla bizneslə qurmaqdan imtina etmək
- KBR-ın maraqlarına zidd ola biləcək maliyyə maraqlarını açıqlamaq
- İdarə heyəti üzvləri, Baş İcraçı Direktor və yuxarı rəhbərliyə və KBR-ın fondları və ya aktivlərinin istifadəsinə nəzarət edən işçilərə xas olan bütün hesabatlılıq prosedurlarına əməl etmək
- Şirkətin təşkilati maraqlarının toqquşmasından qaçınmasına kömək edən proseslərdən yararlanmaq

### Maraqların Toqquşmasının Başa Düşülməsi

Şəxsi əlaqələrimiz və ya maraqlarımız KBR-ın ən yaxşı maraqları ilə uyğun gəlmədikdə maraq toqquşması yarana bilər ki, bu da obyektivliyimizə təsir edə bilər. Maraqlar toqquşması müxtəlif formalarda özünü büruzə verə bilər:

- KBR ilə əlaqəsi olmayan bir təşkilatın direktoru və ya məsləhətçisi kimi fəaliyyət göstərmək
- Potensial rəqib, müştəri və ya təchizatçının biznes fəaliyyətində maddi maraqlara sahib olmaq
- Digər əməkdaşlar, təchizatçılar və ya biznes partnyorlarla şəxsi maliyyə əməliyyatlarında iştirak etmək
- KBR-ın maraqlarına zidd olan və ya əmək məhsuldarlığını məhdudlaşdıran ikinci bir işdə çalışmaq
- Yaxın qohumunu işə götürmək və ya onun fəaliyyətinə nəzarət etmək
- Yaxın qohum olan bir təchizatçı ilə KBR-ınişini aparmaq
- Həmkarınızla, xüsusən də sizə hesabat verən biri ilə romantik münasibətlər qurmaq



### Dürüstlüyə Dəyər Verən İnsanlar

Biz dürüstlüyə dəyər verən insanlar olaraq potensial maraqların toqquşmasının gizli saxlanmasına heç bir ehtiyac olmadığını bilirik. Sizin meneceriniz, Hüquq Departameti və Biznes Etikası Qrupu yol göstərməyə hazırdırlar. Unutmayın ki, zahirən belə maraqların toqquşması bizim və sizin nüfuzunuza zərər verə bilər. Hər zaman potensial münaqişələri bəyan edin və əmin oldadıqda bu barədə məsləhət alın.

# Dürüstlük Seçimi

Bəzən fürsətlər maraqların toqquşmasına yol aça bilər. Fürsət yalnız sizin üçün və ya KBR üçün yarana bilər. Münaqişənin yaranma ehtimalı barədə qərar verməyə kömək etmək hüququ ilə bağlı sualları nəzərdən keçirin.

## Cavabların Verilməsi

**Q** Mən on iki ildir ki, KBR-da mühəndis kimi çalışıram. Komandam yenicə çox vacib bir mərhələni keçdi və mən onları mükafatlandırmaq istəyirəm. Düşünürəm ki, komanda ilə birlikdə nahar yeməyi lap yerinə düşər. Qardaşım iaşə biznesinə sahibdir və çoxsaylı qruplara xidmət göstərə bilər. Onunla bizə nahar yeməyi hazırlaması barədə danışa bilərəm?

**A** Xeyr. Bu maraq toqquşmasına səbəb ola bilər. Biz KBR-dakı mövqeyimizdən yaxın ailə üzvü ilə iş görmək üçün istifadə edə bilmərik, baxmayaraq ki, həmin ailə üzvünün biznesi bizimlə rəqabət aparmır. Siz bu vəziyyəti meneceriniz və ya Hüquq Departmenti ilə müzakirə edə bilərsiniz. Qardaşınızın biznesi ilə bağlı belə bir qərar verməsəniz, KBR gələcəkdə keçiriləcək tədbirlər üçün onun iaşə xidmətlərindən istifadə etməyi düşünə bilər.

**Ətraflı**

Kənar Biznes və Maraqların Toqquşmasına dair Forma

**Mümkün bir qarşıdurmanın olub olmadığına qərar verməyə yardımçı olmaq üçün aşağıdakı sualların hər birinin cavabının üzərinə klikləyin.**

**Şəxsi fürsət KRB-ın təchizatçısı, rəqib və ya biznes partnyorla əlaqəlidirmi, yoxsa o KBR-in biznes fəaliyyətinə aiddir?**

BƏLİ | XEYR

**Şəxsi fürsət KBR-da vəzifə səlahiyyətlərinizi yerinə yetirmək imkanlarınızı azaldacaq və ya məhdudlaşdıracaq?**

BƏLİ | XEYR

**Bu şəxsi fürsət KBR adından obyektiv biznes qərarları qəbul etməyinizə mənfi təsir göstərəcək və ya sizi KBR ilə rəqabət etməyə məcbur edəcək?**

BƏLİ | XEYR

**Ailə üzvünüz KBR üçün fürsətin yaradılmasında iştirak edir?**

BƏLİ | XEYR

**KBR adından obyektiv biznes qərarı verməkdə çətinlik çəkərdiniz yoxsa başqaları qəbul edilmiş qərarların obyektiv olmadığını düşünərdilər?**

BƏLİ | XEYR

# Biz Rüşvətxorluq və Korrupsiyanın Qarşısını Alırıq

İşgüzar əlaqələr qurarkən və davam etdirərkən biz həmişə dürüstlüklə dəyər gətiririk. Hər bir halda rüşvət və ya uyğun olmayan ödənişlər etməyi və ya almağı qadağan edirik. Korrupsiya iş apardığımız icmalara ziyan vurur və əhəmiyyətli cərimələrə və hətta azadlıqdan məhrum olunmaya səbəb ola bilər. Bu, həmçinin, bizim reputasiyamıza mənfi təsir göstərə bilər. Adət və ya qanunlardan asılı olmayaraq, dünyanın harasında bizneslə məşğul olmağımızdan asılı olmayaraq, dəyərlərimizlə bağlı heç vaxt güzəştə getmirik. İnkişaf etməyə davam etdikcə dürüstlüyümüz dəyişməz olaraq qalacaq.

## Rüşvətxorluq və Korrupsiyanın Qarşısını Necə Alırıq

- Heç vaxt bəxşiş, rüşvət və ya əsassız mükafatlandırma da daxil olmaqla, qanunsuz ödənişlər etməyin, təklif etməyin, buna razılıq verməyin və qəbul etməyin
- Dövlət qulluqçuları ilə işləyərkən qanunsuz ödənişlərə xüsusi diqqət yetirin
- Müqavilə bağlanmazdan əvvəl dövlət təşkilatları da daxil olmaqla, potensial biznes partnyorları ilə bağlı risk əsaslı yoxlama aparın
- Heç vaxt üçüncü tərəfdən özümüzün etməyəcəyimiz bir ödənişin aparılması məqsədilə istifadə etməyin
- Mümkün ola biləcək qanunsuz ödənişlər barədə narahatçılıq doğuran məsələlərlə bağlı dərhal məlumat verin
- İcra müddəti hökumətdən asılı olmayan rutin fəaliyyətləri sürətləndirmək və ya icrasını təmin etmək məqsədilə hökumət məmuruna və ya dövlət qulluqçusuna prosesin asanlaşdırılması və ya sürətləndirilməsi məqsədilə heç bir vaxt ödənişlər etməyin
- KBR-ın bütün anti-korrupsiya siyasətləri və prosedurlarına, xüsusən də müəyyən əməliyyatlar üzrə təsdiq və sənədləşdirmə tələblərinə riayət edin



## Rüşvət və ya Qanunsuz Ödəniş Nədir?

Rüşvət və ya qanunsuz ödəniş şəxsdən sui-istifadə, qanunsuz və vəzifə səlahiyyətlərinə zidd hərəkət etməsi üçün pul, hədiyyə və ya istənilən dəyərli bir əşyanın birbaşa və ya dolayısı ilə təklif edilməsi, verilməsi və ya qəbul edilməsidir.

Rüşvət və ya qanunsuz ödənişlər müxtəlif formada ola bilər və pul mübadiləsindən əlavə özündə maddi (hədiyyələr) və qeyri-maddi (vədlər) nəsnələri ehtiva edə bilər. Qanunsuz ödənişlər əcnəbi dövlət məmurları, dövlət satınalma müqavilələri ilə iş görərkən və ya kommersiya fəaliyyətində baş verə bilər. Qanunsuz ödənişlə bağlı sizdə narahatçılıq doğuran məsələ varsa, bu barədə Hüquq Departamentinə — o cümlədən, Korrupsiyaya Qarşı Uyğunluq və Biznes Etikası Qruplarına — yaxud Etik Məsələlər üzrə Qaynar Xəttə bildirin.

**Ətraflı**

Anti-Corruption Compliance

Anti-Corruption Procedures

# Dürüstlük Seçimi

Müxtəlif növ qanunsuz ödənişlər barədə məlumat almaq üçün dairələri klikləyin.






# İşgüzar Lütfkarlığı Məsuliyyətli Şəkildə Təqdim Edir və Qəbul Edirik

Müştərilərimizin etibarlı tərəfdaşları olaraq, işgüzar qərarlara təsir etmək üçün heç bir vaxt hədiyyə və ya digər lütfkarlıqlar təqdim etmir və ya qəbul etmirik. Qərarverməyə bu cür təsiretmə görüntüsü belə reputasiyamıza mənfi təsir göstərə bilər. Bəzən biznes qurmaq və əlaqələr yaratmağın bir hissəsi kimi lütfkarlıqlar ala və ya verə bilsək də, heç vaxt onların biznes qərarlarımıza təsir göstərməsinə icazə vermirik. Uğurumuz işçilərimiz, dürüstlüyümüz və innovativ həllərimiz sayəsində yaratdığımız dəyərə əsaslanır. Heç vaxt yersiz lütfkarlığa yol vermirik.

## İşgüzar Lütfkarlığın Məsuliyyətli Şəkildə Təqdim Edilməsi və Qəbulunu Necə Həyata Keçiririk

- Heç vaxt üçüncü şəxslərə çox bahalı hədiyyələr vermirik və ya tez-tez lütfkarlıq (məsələn, hədiyyələr, qonaqpərvərlik, səyahət və ya əyləncə) etmirik və ya onlardan qəbul etmirik
- Hədiyyə kartları da daxil olmaqla, heç bir zaman nağd pul və ya nağd pul ekvivalenti vermirik və ya qəbul etmirik
- Heç bir zaman üçüncü şəxslərdən lütfkarlıq tələb etmirik
- Hal-hazırda qiymətləndirdiyimiz və ya danışıqlar apardığımız bir təchizatçıdan və ya potensial təchizatçıdan heç vaxt lütfkarlıq qəbul etmirik, çünki bu, ədəbsizlik təəssüratı yarada bilər
- Hədiyyələrin, qonaqpərvərliyin, səyahətin və ya əyləncənin verilə biləcəyi və ya alına biləcəyi şərtləri, o cümlədən dövlət məmurlarına və qulluqçularına nə zaman lütfkarlıq göstərə biləcəyimizi müəyyən edən KBR-ın Korrupsiyaya Qarşı Mübarizə Prosedurlarına riayət edirik

### Ağlabatan və Ənənəvi Lütfkarlıq

Ağlabatan və ənənəvi işgüzar naharlar, əyləncələr və hədiyyələr bu hədiyyələr və ya qəbz ədəbsizlik təəssüratı yaratmayana qədər və prosedurlarımıza uyğun gəldiyi təqdirdə təqdim edilə və ya qəbul edilə bilər. Bütün bu cür tədbirlər prosedurlarımıza uyğun olaraq qeydiyyata alınmalı, təsdiqlənməli və maliyyələşdirilməlidir. Müəyyən bir prosedur olmadıqda, bu lütfkarlıq rəhbərə əvvəlcədən bildirilməli və onun tərəfindən təsdiqlənməlidir.

### Cavabların Verilməsi

**Q** Mən satınalma şöbəsində işləyirəm. Mən təchizatçının işgüzar nahar dəvətini qəbul edə bilərəm?

**A** Vəziyyətdən asılıdır. İşgüzar nahar daha çox ağlabatan və ənənəvi bir lütfkarlıqdır. Bununla belə, müqavilələrin verilməsinə təsir etmək imkanınız olan satınalma şöbəsindəki vəzifənizi nəzərə alaraq, daha diqqətli olmalısınız. Həmişə əvvəlcədən rəhbərin təsdiqini alın və xərclərin qarşılanmasına dair prosedurlara əməl edin.

İşgüzar lütfkarlıqla bağlı hüquqi tələblər kommersiya müqavilələri ilə müqayisədə dövlət müqavilələrinə qarşı daha sərt ola bilər. Dövlət satınalma müqavilələri üzərində işləyərkən bu tələblərə əməl etməliyik.

# Biz Dürüstlüklə Beynəlxalq Biznes və Ticarət Aparırıq

KBR dünyanın biznes apardığımız istənilən yerində yüksək dürüstlük standartlarını tətbiq edir. Beynəlxalq biznesi dürüstlüklə idarə etmək, daha yaxşı və təhlükəsiz bir dünya yaratmaq istəyimizdə bizə kömək edir. İxrac və idxal qanunları, eləcə də sanksiya və embarqoların da daxil olduğu beynəlxalq ticarət qanunlarını heç vaxt pozmuruq. Bu qanunlar məkana görə dəyişə bilər və biz onları bilmək və onlara əməl etmək üçün məsuliyyət daşıyırıq. Buna əməl edilməməsi ciddi nüfuz zərərinə, cərimələrə və hətta həbs cəzasına səbəb ola bilər.

## Biz Dürüstlüklə Necə Beynəlxalq Biznes və Ticarət Aparırıq

- Öncədən ticarət qanunları və qaydaları ilə tanış olmadan heç vaxt xaricdə biznes ilə məşğul olmuruq
- Bütün ticarət qanunları və qaydalarına əməl edirik
- Texniki məlumatların əcnəbi şəxslə mübadiləsinin nəzərdə tutulan ixracata gətirib çıxaracağını müəyyən edirik
- Bütün lazımi ixrac və idxal lisenziyalarını və digər icazələri alınmasını təmin edirik
- ABŞ-ın boykotla mübarizə qaydalarına əməl edirik
- ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi (OFAC) və digər ölkələrin hökumət orqanları tərəfindən tətbiq edilən bütün sanksiyalara və digər ticarət məhdudiyyətlərinə əməl edirik
- Ticarət üzrə bütün məsələlərlə bağlı tövsiyələr üçün KBR-in Hüquq Departamentinin (ITCO) Beynəlxalq Ticarətə Uyğunluq Şöbəsinə müraciət edirik
- Beynəlxalq ticarətlə əlaqəli bütün KBR qaydalarına və prosedurlarına əməl edirik



**Ətraflı**

Export Compliance Manual

International Trade Compliance Office

# Biz Ədalətli Rəqabət Aparırıq

Biz bütün dünyada müştərilərimizə ən mühüm məqsədlərinə çatmağa kömək edən həllər təqdim edirik və biz öz biznesimizdəki uğurlara dürüstlüklə nail oluruq. Açıq və dürüst rəqabət bizi işimizdə ən yaxşı olmağa sövq edir və innovativliyi təşviq edir. Biz heç bir zaman bazarda ədalətsiz üstünlüklər axtarmırıq. Bu, yalnız müştərilərimiz və biznes partnyorlarımızla münasibətlərimizə xələl gətirməz, həmçinin ciddi hüquqi nəticələrə səbəb ola bilər.

## Biz Rəqabəti Ədalətli Şəkildə Necə Həyata Keçiririk

- Bütün tətbiq olunan antiinhisar və rəqabət qanunlarına əməl edirik
- Heç vaxt rəqibimizlə aşağıdakıları müzakirə etmirik və ya müqavilə bağlamırıq:
    - Qiymətlər
    - Satış və ya xidmət şərtləri
    - Paylanma
    - Ərazilər
    - Müştərilər
- Ticarət birlikləri və ya sənaye iclasları vasitəsilə rəqiblərlə məlumat mübadiləsinə başlamazdan əvvəl KBR-ın Hüquq Departamentinə müraciət edirik
- Rəqiblərin məhsul və ya xidmətləri haqqında heç vaxt yalan iddialar irəli sürmürük
- Rəqiblərin qanunsuz müqavilə bağlamaq cəhdi və ya rəqibdən aldığımız hərhansı qiymət və ya tender təklifi haqqında məlumatı dərhal KBR-ın Hüquq Departamentinə bildiririk




### Cavabların Verilməsi

**Q** Mən Biznesin İnkişafı şöbəsində çalışıram. Bu yaxınlarda keçirilən ticarət sərgisində hal-hazırda rəqiblərimizdən biri üçün işləyən keçmiş həmkarımla tanış oldum. O, məni müqayisə məqsədləri üçün biznes prosesləri və fəaliyyət göstəricilərini bölüşmək istəyən sənaye qrupu ilə ayrıca görüşə qoşulmağa dəvət etdi. Mən bu görüşə qatılmalıyam?

**A** Məqsəd sənaye meyarlarını yaratmaq olsa belə, KBR-a dair məlumatın rəqiblərlə paylaşılması antiinhisar qanunlarını poza bilər. İştirak etməklə bağlı qərar verməzdən əvvəl Hüquq Departamenti ilə məsləhətləşin.

# Biz Dürüst İşləyirik

Hər hansı bir problemlə qarşılaşmaqdan qorxmuruq, amma bunu dürüst bir şəkildə edirik. Biz KBR-ı güvənli bir şəkildə təmsil etməklə müştərilərimiz və biznes partnyorlarımız arasında etimad qurur və onu saxlayırıq. Əməkdaşlar olaraq, bizim KBR-ın uzun illər ərzində qurduğu aktivlərə çıxışımız da var. Biz bu aktivlər və resurslardan yalnız biznes məqsədləri üçün istifadə edirik. Aktivlərimizdən ehtiyatsız və ya yanlış məqsədlər üçün istifadə ən yaxşı nəticələrin əldə edilməsi potensialımıza xələl gətirir.

## Biz Necə Dürüst İşləyirik

- Bütün marketinq materiallarında məhsul və xidmətlərimiz haqqında doğru məlumat təqdim edirik
- Müştərilər və biznes partnyorlarla danışıqlar apararkən heç vaxt onları aldatmırıq və ya aqresiv satış etməyə çalışmırıq
- Bütün icra müddətlərini dəqiq qiymətləndirir və dəyişikliklər barədə dürüst məlumat veririk
- Həllərimiz haqqında danışarkən heç vaxt rəqibləri aşağılamırıq
- KBR aktivlərini, o cümlədən pul vəsaitlərini yalnız biznes məqsədləri üçün istifadə edirik
- Heç bir zaman KBR-ın vəsaitlərini və ya digər aktivləri mənimsəmirik
- Xərclər və işlənilən saatlar haqqında dürüstlüklə və dəqiq məlumat veririk

## Cavabların Verilməsi

**Q** Bu illər ərzində satış rəhbərim Corc ilə yaxşı dostluq münasibətləri qurmuşam. Keçən həftə sonu həyat yoldaşlarımızla birlikdə gəzintiyə getdik və gözəl vaxt keçirdik. Hərçənd mən Corcun naharımızı ödəmək üçün şirkətin kredit kartından istifadə etdiyini gördüm. Daha sonra ondan bu barədə soruşdum və narahat olmamağımı söylədi. Hələ də özümü narahat hiss edirəm, çünki bunun şirkətin vəsaitlərindən məqsədyönlü bir istifadə olub-olmadığını düşünürəm. Bu məqsədyönlü istifadə idi?

**A** Xeyr. Rəhbəriniz şəxsi xərclərin ödənilməsi üçün korporativ kartdan istifadə etməməli idi. Xərclər haqqında yalan məlumatların təqdim edilməsi fırıldaqçılıqdır və bu Kodekslə qadağandır. Corc sizin rəhbəriniz olduğundan, problemi bildirmək üçün Etik Məsələlər üzrə Qaynar Xəttdən istifadə etməlisiniz.

**Q** Tədqiqat layihəsinə cəlb olunmuş mühəndis kimi mən həmişə iş saatlarımı müvafiq ödəniş kodu ilə birgə dəqiq şəkildə bəyan edirəm. Bu yaxınlarda menecerim iş saatlarımı fərqli bir ödəniş kodu ilə göstərməyimi istədi, baxmayaraq ki, bu, işləmədiyim bir layihəyə aiddir. Mən iş saatlarımı digər layihə kodu ilə əlaqələndirməkdən ehtiyat edirəm. Bu halda mən nə etməliyəm?

**A** Aydınlaşdırma üçün menecerinizlə əlaqə saxlamalısınız. Çox vaxt eyni layihə üçün birdən çox ödəniş kodu istifadə olunur və müştəri fərqli bir ödəniş koduna üstünlük verə bilər. Bununla belə, sizdən üzərində işləmədiyiniz layihə üzrə iş saatları barədə məlumat verməyiniz tələb olunduğundan şübhələnirsinizsə, bu məsələni departamentə/layihə menecerinə, Əməkdaşlarla İş Şöbəsinə (İnsan Resursları), Hüquq Departmentinə, Biznes Etikası Qrupuna və ya Etik Məsələlər üzrə Qaynar Xəttə bildirməlisiniz.



# Kritik Aktivlərimizə Verdiyimiz Dəyər

- Məxfiliyi və Şəxsi Məlumatları Qoruyuruq
- Reputasiyamızı Qoruyuruq
- Biz Konfidensial və Xidməti Məlumatları Qoruyuruq
- İnsayder Ticarətinin Qarşısını Alırıq

# Məxfiliyi və Şəxsi Məlumatları Qoruyuruq

Biz böyük bir qlobal şirkət olaraq, biznes fəaliyyəti zamanı əməkdaşlardan və müştərilərdən şəxsi məlumatları toplayırıq. Maraqlı tərəflərimizin məlumatlarını və məxfilik hüquqlarını müdafiə etdikdə, onlara dəyər verdiyimizi göstəririk. Biz həmçinin onların etimadını qazanır və qoruyub saxlayırıq ki, bu da davamlı uğurumuzun təməlidir. Biz şəxsi məlumatları və inkişafımız üçün kritik olan verilənləri qoruyuruq. Çox səviyyəli təhlükəsizlik tədbirlərimiz məlumat aktivlərini qoruyur və qüvvədə olan qanunvericiliyə uyğun olaraq bütün maraqlı tərəflərimiz üçün həm şəxsi, həm də biznes məlumatlarının məxfiliyini və təhlükəsizliyini təmin edir.

## Biz Məxfiliyi və Şəxsi Məlumatları Necə Qoruyuruq

- Məlumat sistemlərimizə yalnız səlahiyyətli istifadəçilərin daxil olmasını təmin edirik
- Əməkdaşlara yalnız işlərini yerinə yetirmək üçün lazım olan məlumatlara giriş imkanı veririk
- KBR məlumatlarının yalnız KBR tərəfindən təsdiqlənmiş təhlükəsiz cihazlarda saxlanılmasını təmin edirik
- Heç vaxt şübhəli e-poçt əlavələrini və ya hiperlinkləri açmırıq
- Yalnız biznes məqsədlər üçün lazım olan şəxsiyyəti identifikasiya edəcək məlumatları toplayır və qoruyuruq
- Bütün məxfilik və məlumatların qorunması üzrə siyasət və prosedurlara əməl edirik

## Şəxsi Məlumatlar

Şəxsi məlumatlar müxtəlif formalarda ola bilər. Bəzi nümunələrə aşağıdakılar daxildir:

- Ad və soyad
- Sosial sığorta nömrəsi
- Sürücülük vəsiqəsinin nömrəsi
- Kredit kartının nömrəsi
- Ev ünvanı
- Şəxsi e-poçt ünvanı
- Şəxsi telefon nömrəsi

Şəxsi məlumatlara müəyyən bir şəxsi identifikasiya edə biləcək fərdi məlumatlar daxildir. Bununla birlikdə, digər növ məlumatlar, birləşdirildikdə, müəyyən bir şəxsi identifikasiya etmək üçün istifadə edildiyi halda onlar da şəxsi məlumatlar hesab edilə bilər. Bu kimi digər növ məlumatlardan bəziləri bunlardır:

- Doğum tarixi və yeri
- İş telefonu
- Tibbi məlumatlar
- Təhsili
- Etnik mənsubiyyəti və dini

Bütün bu növ məlumatlardan xəbərdar olun və onları təhlükəsiz bir şəraitdə saxladığınızdan əmin olun.

## Bizim Kommunikasiya İnfrastrukturumuz

KBR şəxsi məlumat da daxil olmaqla, kommunikasiya infrastrukturunda əhəmiyyətli məlumatları saxlayır. Kompüterlərimiz, serverlərimiz, mobil qurğularımız, proqram təminatı və digər texnologiyalar bizə müxtəlif biznes məqsədlərinə çatmağa kömək edir. Bu infrastrukturu qoruduğumuzda, həmçinin içindəki bütün məlumatları da qoruyuruq.

Biz hər zaman bütün kommunikasiya sistemlərimizin təhlükəsizliyini təmin edirik. Bu, köhnəlmiş və ya zədələnmiş cihazların təmiri və ya dəyişdirilməsi, bütün təhlükəsizlik yeniləmələrinin tətbiqi, iş yerində və ya kənarda güclü parollardan və digər qorunma vasitələrindən istifadə edilməsi və bütün məlumatların ötürülməsi və silinməsi protokollarına riayət edilməsi deməkdir.

**Ətraflı**

Global Data Privacy Policy

Data Privacy and GDPR

# Biz Reputasiyamızı Qoruyuruq

Son yüz ildən çox bir müddət ərzində KBR innovativ texnologiya və həllər üzrə reputasiya qazanmışdır. Bu nüfuzu və işgüzar əlaqələrimizi qorumaq üçün biz bir komanda kimi kommunikasiya edirik. Maraqlı tərəflərimiz KBR haqqında həqiqətə uyğun və ardıcıl məlumatlar almağa layiqdirlər və təyin etdiyimiz nümayəndələrimiz bunların çatdırılmasını təmin edirlər. Bundan əlavə, sosial mediada KBR-dən bəhs edərkən həmişə diqqətli davranırıq.

## Reputasiyamızı Necə Qoruyuruq

- Kənardan daxil olan sorğuları aidiyyəti əməkdaşlara göndəririk
- Sosial mediada və ya hər hansı digər kommunikasiya platformalarında heç vaxt şəxsi fikirlərimizi KBR-ın fikirləri kimi təqdim etmirik
- Məhsul və ya xidmətlərimizi təsdiqləyiriksə, özümüzü KBR işçiləri kimi identifikasiya edirik
- Sosial mediadan biznes məqsədlər üçün istifadə edərkən və şəxsi və ya biznes hesablarından istifadə edərkən şirkət haqqında şərh yazanda Kodeksə və şirkətin digər siyasətlərinə əməl edirik
- KBR-ın Sosial Media Siyasətinə əməl edirik



## Sosial Mediadan İstifadə

Sosial media birbaşa ünsiyyət qurmaq, məlumat toplamaq və əlaqələr qurmaq üçün güclü bir vasitədir. Biz sosial mediadan mesajlarımızı və baxışlarımızı bölüşmək və başqalarını innovasiyalar və töhfələrimiz haqqında məlumatlandırmaq üçün istifadə edirik.

Bizə həmçinin məlumdur ki, onlayn kommunikasiya müsbət və mənfi nəticələrə gətirib çıxara bilər. Biz hər zaman KBR haqqında yazdıqlarımıza diqqət yetiririk. Biz heç vaxt yanlış məlumatlar dərc etmirik və məxfi məlumatları paylaşmırıq və ya sosial mediadan KBR-ın sosial media siyasətini pozacaq şəkildə istifadə etmirik.  Bundan əlavə, sosial media bizim KBR-dakı vəzifələrimizə müdaxilə etməməlidir. Sosial mediadan şəxsi məqsədlər üçün istifadənin iş əsnasında fikrimizi yayındırmasına heç vaxt yol vermirik.

**Ətraflı**

Social Media Policy

# Biz Konfidensial və Xidməti Məlumatları Qoruyuruq

İntellektual mülkiyyət də daxil olmaqla, məxfi və xidməti məlumatlarımız bizləri digərlərindən fərqləndirir. Yenilikçi həllərimiz sayəsində rəqiblərimizdən fərqlənirik və zəhmətlə qazandığımız bilik və innovasiyalarımızı qorumalıyıq. Bu biznes aktivləri biz inkişaf etdikcə müştərilərimizə və biznes partnyorlarımıza davamlı xidmət göstərməyə kömək edəcək.

KBR-dakı fəaliyyətimizin bir hissəsi olaraq, müştərilərimizin xidməti məlumatları da daxil olmaqla, özümüzün və ya biznes partnyorumuzun məxfi məlumatlarına çıxış əldə edə bilərik. Biz bu məlumatlarla hər zaman ehtiyatlı davranırıq. Məxfi və xidməti məlumatların icazəsiz paylaşılması KBR və onun müştərilərinə zərər vura və ya rəqiblərimizə kömək edə bilər.

Strateji Biznes Məlumatları

Xidməti Məlumatlar

Əqli Mülkiyyət

## Dürüstlük Seçimi

Məxfi və xidməti məlumatlar müxtəlif formada ola bilər. Nümunələr üçün dairələrin üzərinə klikləyin.

Marketinq Məlumatları

Konfidensial Maliyyə Məlumatları

### Konfidensial və Xidməti Məlumatları Necə Qoruyuruq

- İcazə verildiyi hallar istisna olmaqla, heç vaxt KBR və ya biznes partnyorlarımızın məxfi və xidməti məlumatlarından istifadə etmirik
- Heç vaxt KBR-ın məxfi və ya xidməti məlumatlarını və ya biznes partnyorunun məlumatlarını öncədən icazə almadan açıqlamırıq
- KBR-dakı işinizdən çıxarkən heç vaxt KBR və ya biznes partnyorlarımızın məxfi və ya xidməti məlumatlarını özünüzlə götürmürük və ya istifadə etmirik
- KBR-da işləyərkən heç vaxt əvvəlki iş yerlərinə aid məxfi və ya xidməti məlumatlardan istifadə etmirik
- KBR-ın müəllif hüquqları, patentlər və ticarət nişanları, eləcə də digərləri ilə bağlı bütün məhdudiyyətlərə əməl edirik
- Üçüncü tərəfin biznes proqram təminatları kimi resurslarından istifadə edərkən bütün lisenziya şərtlərinə əməl edirik
- Bütün sənədləri, məlumatları və cihazları effektiv kilidlər və parollarla qoruyuruq
- Lift və kafe kimi ictimai yerlərdə heç vaxt məxfi məlumatları müzakirə etmirik
- Yalnız səlahiyyətli əməkdaşların iş yerlərinə daxil ola biləcəyini təmin edir və bütün ziyarətçiləri müşayiət edirik
- Evdən işləmək də daxil olmaqla ofisdən kənarda işləyərkən zəruri ehtiyat tədbirlərinə əməl edirik
- Hər hansı məlumat və ya təhlükəsizlik pozuntuları barədə dərhal məlumat veririk

**Ətraflı**

Critical Assets Management

Data/Document Classification and Management of Proprietary Information

# Biz İnsayder Ticarətinin Qarşısını Alırıq

Strateji biznes məlumatlarımız heç də hər zaman ictimaiyyət üçün asanlıqla əlçatan olmur. Səhmdar şirkət olaraq, biz heç vaxt bu cür materiallı, qeyri-ictimai məlumatları şəxsi mənfəət üçün istifadə etmir və ya paylaşmırıq. Biznes partnyorlarımız da öz məlumatlarının qorunmasını bizə etibar edirlər və bu etimada heç vaxt xəyanət etmirik. İnsayder ticarətinin hər hansı forması, o cümlədən "qeyri-ictimai məlumatlarının açıqlanması" və ya şirkətdaxili məlumatın paylaşılması qanunsuzdur. Bu, nüfuzumuza xələl gətirə və sərt hüquqi sanksiyalara səbəb ola bilər.

## İnsayder Ticarətinin Qarşısını Necə Alırıq

- Ailə və dostlar da daxil olmaqla KBR xaricində heç kimlə daxili məlumatları paylaşmırıq
- Daxili, ictimaiyyətə açıqlanmayan məlumata sahib olduqda, heç vaxt KBR və ya hər hansı digər şirkətin səhmlərini almır və ya satmırıq
- Daxili məlumatları yalnız biznes məqsədləri üçün ehtiyacı olan işçilərlə paylaşırıq
- Heç vaxt KBR xaricində qiymətli kağızlar almaq və ya satmaq üçün istifadə edə biləcək şəxslərə "məlumat vermirik" və ya daxili məlumatı onlarla paylaşmırıq
- Heç vaxt yalan məlumat yayaraq səhmlərin qiymətini manipulyasiya etməyə çalışmırıq



## Daxili Məlumat

Maddi, ictimai olmayan və ya şirkətdaxili məlumatlar bir çox formada təqdim edilə bilər. Nəticədə, ictimai olmayan məlumatların əksəriyyəti ictimaiyyətə açıqlanacaq. Əgər ictimaiyyət bu barədə heç nə bilmirsə, bu "daxili" məlumatdır. Aşağıda bir neçə nümunə verilib:

- Baş tutacaq birləşmə və ya satınalma haqqında ətraflı məlumat
- Xüsusi dividentlər
- Yeni məhsulun təqdimatı və ya yeni layihələr haqqında ictimaiyyətə açıqlanmayan məlumatlar
- KBR-ın maliyyə göstəriciləri
- Davam etməkdə olan məhkəmə haqqında məlumat
- İstintaq və ya audit tapıntıları
- KBR-dakı vəzifə səlahiyyətlərimizin icrası nəticəsində müştərilərimiz də daxil olmaqla, digər şirkətlər haqqında əldə edə biləcəyimiz maddi, qeyri-ictimai məlumatlar



# Şəffaf Xidmət

- Dövlət Sifarişçiləri ilə Etik Qaydada və Şəffaf İşləyirik
- Təchizatçılar və Üçüncü Tərəflərlə Etik Qaydada İşləyirik
- Mühasibat Uçotu və Qeydlərini Dəqiqliklə Aparırıq

# Dövlət Sifarişçiləri ilə Etik Qaydada və Şəffaf İşləyirik



Biz ABŞ hökumətinə və dünyanın digər hökumətlərinə həllərin təqdim edilməsindən şərəf duyuruq. Hökumətdə işləməyin xüsusi məsuliyyətlər, hüquqi və etik öhdəliklər tələb etdiyini başa düşür və biz onları tamamilə qəbul edirik. Bizim yüksək dürüstlük standartlarımız bütün müştərilərimizə şamil edilir, lakin biz dövlət vəsaiti ilə ödənilən öhdəlikləri yerinə yetirməkdə xüsusilə səy göstəririk. KBR, dövlət müqavilələri ilə əlaqəli bütün qüvvədə olan qanun və qaydalara riayət edir. Bu qanun və qaydalara əməl etməmə cari və gələcək dövlət müqavilələrini təhlükə altına ala bilər.

## Biz Dövlət Sifarişçiləri ilə Etik Qaydada və Şəffaf Necə İşləyirik

- Bütün öhdəliklərimizə tam əməl edirik
- Zəruri hallarda xərclər və qrafiklər də daxil olmaqla, müqavilənin bütün aspektlərinə dair məlumatları şəffaf şəkildə paylaşırıq
- Müqavilələri düzgün idarə edir və işlərin yerinə yetirilməsinə lazımi şəkildə nəzarət edirik
- Heç bir halda qüvvədə olan qanun və qaydaları pozaraq dövlət rəsmiləri və ya qulluqçularına dəyərli hədiyyələr təklif etmirik
- İş saatlarına dair hesabatlar da daxil olmaqla, dəqiq və doğru uçot aparır və təqdim edirik
- Müştərilərə və ya hər hansı bir dövlət sənədində heç vaxt yalan iddialar, ifadələr və ya təhriflər təqdim etmirik
- Hökumət müqavilələri ilə bağlı tələb olunan bütün təlimlərdə iştirak edirik
- Bütün dövlət satınalma qanunlarına, siyasətlərinə və prosedurlarına əməl edirik
- KBR-ın bütün əməkdaşları, təchizatçıları və podratçılarının KBR-ın Etik Davranış Kodeksi və Təchizatçının Davranış Kodeksi haqqında məlumatlı olmasını və onlara əməl etməsini təmin edirik

**Ətraflı**

Contractor Code of Business Ethics and Conduct Compliance Policy



# Təchizatçılar və Üçüncü Tərəflərlə Etik Qaydada İşləyirik

Biz bütün maraqlı tərəflərimizə müstəsna və davamlı dəyər təqdim edirik. Bu öhdəlikdən heç vaxt güzəştə getməməyimizi təmin etmək üçün yüksək standartlarımızı bölüşən təchizatçılar və üçüncü tərəflərlə işləyirik. Dürüstlüyümüzə xələl gətirmədən işgüzar əlaqələr qurarkən və onları qoruyub saxlayarkən həmişə maksimum fayda əldə etməyə çalışırıq. Keyfiyyət və dürüstlük nüfuzumuzu qorumaq üçün tədarükçülər və üçüncü tərəflərlə işləyərkən ədalətli və diqqətli oluruq.

## Təchizatçılar və Üçüncü Tərəflərlə Etik Qaydada Necə İşləyirik

- Münasibətlərin biznes dəyərindən asılı olmayaraq bütün təchizatçılar və üçüncü tərəflərlə ədalətli davranırıq
- Dəyərlərimizi bölüşən və biznes məqsədlərimizə çatmağa kömək edən tədarükçüləri və üçüncü tərəflərin axtarışındayıq
- Tədarükçüləri və üçüncü tərəfləri qiymət, keyfiyyət, əlçatanlıq və texniki mükəmməllik kimi obyektiv meyarlara əsasən seçirik
- Yarana biləcək işgüzar problemləri həll etmək üçün açıq və dürüst ünsiyyət aparırıq
- Təchizatçılarımızın və üçüncü tərəf partnyorlarımızın etik qaydalara riayət etməsindən, qanuna və Təchizatçının Davranış Kodeksinə əməl etməsindən əmin olmağa çalışırıq

**Ətraflı**

KBR Supplier Code of Conduct

Procurement and Supply Chain Management

# Biz Qeydləri və Mühasibat Uçotunu Dəqiqliklə Aparırıq

Qeydlər və mühasibat uçotunun dəqiqliklə aparılması bizə gələcək üçün planlar qurmağa imkan verir və maraqlı tərəflərimizdə əminlik hissi yaradır. Strateji investisiyalar və qərarlar qanuna əməletmə kimi dəqiqliklə aparılan mühasibatı uçotu və qeydlərindən asılıdır. Səhmdar şirkət olaraq biz fəaliyyət göstərdiyimiz dövlətlərin qanunları və qaydalarına uyğun olaraq investorlar və dövlət orqanlarına vaxtlı-vaxtında və dəqiq uçot məlumatlarının təqdim olunmasına görə məsuliyyət daşıyırıq.

## Mühasibat Uçotu və Qeydlərini Necə Aparırıq

- Maliyyə hesabatlarının etibarlılığına dair kafi əminliyin təmin edilməsinə imkan verən daxili mühasibat uçotuna nəzarət sistemini təmin edirik
- Ümumi qəbul edilmiş mühasibat uçotu prinsiplərinə, qanuni tələblərə və bütün daxili nəzarət alətlərinə əməl edirik
- Hesabları, hesabatları və qəbzləri dürüst tərtib edir və oradakı rəqəmləri şişirtmirik
- Ödənişlər də daxil olmaqla, bütün mühasibat uçotu sənədlərinin şirkətin aktivləri üzrə əməliyyatlarını və sərəncamını düzgün və ədalətli şəkildə əks etdirdiyindən əmin olmağa çalışırıq
- Bütün əməliyyatlara siyasət və prosedurlarımıza uyğun olaraq icazə verildiyindən və əməliyyatın etibarlılığını yoxlamaq üçün sənədlərlə dəstəkləndiyindən əmin olmağa çalışırıq
- Bütün aktivləri, öhdəlikləri, gəlirləri və xərcləri, xüsusən də daxili, ictimai və tənzimləyici hesabatlar üçün və ya onların bir hissəsi kimi hazırlanmış maliyyə hesabatları, hesabatlar və məlumatları tam və vaxtında qeydiyyatını aparırıq
- Heç vaxt gizli və ya uçota alınmayan vəsaitlər və ya aktivlər yaratmırıq
- Qeyri-dəqiq və ya çaşdırıcı uçot qeydləri ilə bağlı narahatlıqlarınız barədə Daxili Auditə, Baş Mühasibə Hüquq Departmentinə, Biznes Etikası Qrupuna, və ya Etik Məsələlər üzrə Qaynar Xəttə bildirin
- Sarbanes-Oxley Qanunu, Xaricdə Korrupsiya Haqqında Qanun və korrupsiyaya qarşı və ya çirkli pulların yuyulmasına dair qüvvədə olan qaydalar da daxil olmaqla, bütün müvafiq qanun və qaydalara əməl edirik



Maliyyə hesabatlarına əlavə olaraq, şirkətin apardığı uçot qeydləri bir çox formada ola bilər. Bunlara aşağıdakılar daxildir:

- E-poçtlar, məktublar, memorandumlar, sosial mediadakı postlar, mətn mesajları və digər növ yazışmalar
- Siyasət və prosedurlar
- Müqavilələr
- Hesabatlar, təhlillər, düsturlar, qrafiklər və təqdimatlar
- Şəxsi fayllar

Qeydlərimizi tərtib edərkən biz onların saxlanması qrafikimizə əməl edirik. Qeydlər zəruri hallarda onlardan istifadəni təmin etmək üçün müəyyən edilmiş müddətlərdə saxlanılır. Bundan əlavə, lazım gələrsə, şirkətin sənədləri ilə bağlı bütün qanuni tələblərə əməl edirik.

**Ətraflı**

Content and Records Management Policy



# İcmalarımıza Verdiyimiz Dəyər

- Dayanıqlı Bir Gələcək Qururuq
- İnsan Haqlarına Hörmətlə Yanaşırıq
- İcmalarımızla Qarşılıqlı Əlaqə Saxlayırıq



# Dayanıqlı Bir Gələcək Qururuq

KBR-da dayanıqlılıq bütün fəaliyyətimizin əsasını təşkil edir. Bu, gələcək nəsillər üçün icmalarımızı, insanlarımızı və planetimizi dəstəklənməsinə dair yanaşmamızı müəyyən edir. Daim planetimizə fayda gətirən innovativ texnologiyaların inkişafına çalışırıq. Plastik materialların təkrar emalı texnologiyası kimi dayanıqlı həllərimiz sirkulyar iqtisadiyyat yaratmağa kömək edir və müştərilərimizə dayanıqlılıqla bağlı məqsədlərinə nail olmaqda bizə kömək edir. Hər bir layihə və biznes fəaliyyəti iqlim dəyişikliyi ilə mübarizə aparmaq və ətraf mühitin qorunması və bərpası üçün imkan yaradır.

## Biz Dayanıqlı Gələcəyi Necə Qururuq

- İstixana qazlarının emissiyasını azaltmaq üçün elmi əsaslı məqsədyönlü təşəbbüslərə sadiqlik
- Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişində iştirak etmək
- Regenerasiyanı dəstəkləməklə ətraf mühitə mənfi təsirləri minimuma endirmək
- KBR-ın biznes mədəniyyətinə ekoloji və sosial əsasları daxil etmək

**Ətraflı**

Global Sustainability Policy

Global Environmental Policy

KBR Sustainability Pillar Commitments

KBR Zero Harm

KBR Sustainability



# İnsan Haqlarına Hörmətlə Yanaşırıq

Qlobal bir şirkət olaraq KBR ən yüksək insan hüquqları standartlarına hörmət edir və onları dəstəkləyir, insan hüquqlarının hər hansı bir formada pozulmasını qəbul etmir. Biz insan alveri, müasir köləlik və uşaq əməyinin ağır cinayətlər olduğunu qəbul edirik. Yüzlərlə ölkədə minlərlə təchizatçı ilə biznes fəaliyyəti ilə məşğul olduğumuz hər yerdə insan hüquqlarına riayət olunmasını təmin etmək üçün addımlar atırıq. İnsanlara dəyər verilməsi bütün icmalarımızda insan şərəfinin qorunması deməkdir.

## İnsan Haqlarına Necə Hörmətlə Yanaşırıq

- Bütün KBR işçilərinin ədalətli və uyğun iş saatları və təhlükəsiz şəraitdə işləmək üçün kompensasiya almasını təmin edirik
- Təchizatçılar və üçüncü tərəflərin ədalətli əmək standartlarına və insan hüquqlarına sadiq qalmalarını təmin etmək üçün lazımi araşdırma aparırıq
- Dünyanın heç bir yerində heç vaxt uşaq əməyi və ya məcburi əməkdən istifadə etmirik
- Yalnız nüfuzlu üçüncü tərəf məşğulluq və işə qəbul agentliklərindən istifadə edirik
- Potensial insan hüquqları pozuntularını dərhal Etik Məsələlər üzrə Qaynar Xəttə, Biznes Etikası Qrupuna, yaxud Hüquq Departmentinə bildirin
- Qüvvədə olan bütün qanunlara, siyasətlərə və prosedurlara əməl edir və insan ləyaqətini qorumaq üçün mümkün olan hər şeyi edirik

**Ətraflı**

Global Human Rights Policy

Trafficking in Persons Policy

# İcmalarımızla Qarşılıqlı Əlaqə Saxlayırıq

KBR-da biz hesab edirik ki, bizim məsuliyyətimiz dünyada dəyişikliklərə müsbət hərəkətverici qüvvə olmaqdır. Sosial dəyər yaratmaq və yaşadığımız və işlədiyimiz icmaların rifahına töhfə vermək bizim vəzifəmizdir. Missiyamızı yerinə yetirərkən hər zaman hamı üçün daha yaxşı və təhlükəsiz bir dünya qurmağa çalışmışıq.

## İcmalarımızla Necə Qarşılıqlı Əlaqə Saxlayırıq

- Könüllü fəaliyyəti ilə məşğul olur və xeyriyyəçilik işlərində iştirak edirik
- Əməkdaşlıq, məsləhətləşmə və ünsiyyət vasitəsilə fəaliyyət göstərdiyimiz icmalara davamlı müsbət təsir göstərməyə çalışırıq
- KBR adından ianə verərkən və ya vəsait bağışlayarkən antikorrupsiya prosedurlarımıza əməl edirik
- İcma ilə bağlı səylərimizi etik qaydalar və iş öhdəliklərimizə uyğun şəkildə idarə edirik

## Yardım Etmək

2007-ci ildən bəri KBR dünyada xeyriyyə məqsədləri üçün təxminən 20 milyon dollar vəsait xərcləyib. İnsanlarımız aztəminatlı uşaqlara paltar və məktəb ləvazimatları bağışlayıb, ehtiyacı olanlara Milad hədiyyələri üçün minlərlə dollar vəsait toplayıb və dünyanın bir çox yerlərində su yolları və çimərliklərin təmizlənməsində köməklik göstərib. Bunlar fəaliyyətimizin əsasını insan faktorunun təşkil etdiyini göstərən bir neçə nümunədir.

## Siyasətdə İştirak Etmək

Hamımızın siyasi proseslərdə iştirak etmək hüququ var. Açıq siyasi sistem daha ədalətli cəmiyyət formalaşdırır. Siyasi proseslərdə iştirak edərkən biz:

- Siyasi təsir və təşviqat kampaniyası üçün ianələrlə bağlı qüvvədə olunan qanunlara hər zaman əməl edirik
- Həmişə bizim baxışlarımızın KBR-ın fikirləri ilə üst-üstə düşmədiyini aydın bir şəkildə bildiririk
- Heç vaxt siyasi fəaliyyətimizin iş öhdəliklərimizə mane olmasına imkan vermirik
- Siyasi hərəkatlarımıza qoşulmaları üçün heç vaxt həmkarlarımıza təzyiq göstərmirik
- Öncədən razılıq almadan heç vaxt KBR adından siyasi ianələr vermirik



# Resurslar və Hesabatlılıq

# Resurslar və Hesabatlılıq

VAHİD KBR olaraq müştərilərimiz, səhmdarlarımız, əməkdaşlarımız və xidmət göstərdiyimiz icmalar üçün hər hansı bir layihəni istənilən vaxt və istənilən mühitdə təhlükəsiz bir şəkildə həyata keçirmək kimi bir ortaq hədəf ətrafında birləşirik. Kodeksimiz dürüstlüklə uğur əldə etmək üçün bizə lazım olan rəhbər prinsipləri təqdim edir. Əlavə məlumat və ya təlimat üçün aşağıdakı resurslara baxın.

## Ümumi resurslar

BUSINESS INTEGRITY TEAM

- Biznes Etikası Qrupu
- Hüquq Departmenti
- Audit Xidmətləri
- Əməkdaşlarla İş Şöbəsi (İnsan resursları)
- Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit
- Korporativ dayanıqlılıq

## Hesabatlılıq üçün resurslar

- Etik Qaynar Xətti
  - Veb-sayt:
    - www.ethics.kbr.com
  - Telefon:
    - ABŞ: (800) 461-9330
    - Birləşmiş Krallıq: 0808 189 1053
    - Bütün digər ölkələrdəki telefon nömrələri üçün baxın: www.ethics.kbr.com
  - 832-479-1340 nömrəsinə “Hesabat” mətnini göndərin (yalnız ABŞ-da mövcuddur)
- E-poçt
  - FHOUKBR – KODEKS
  - fhoukbrcode@kbr.com
- Poçt
  - Biznes Etikası Qrupunun Rəhbəri, KBR, Inc.
  - Poçt qutusu 2464, Hyuston, TX 77252-2464 ABŞ





Dünyanı dəyişən həllər təqdim edirik.℠